**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№373/3** **24 yanvar 2025-ci il**

**“Maliyyə nəzarətinin (auditin) formalaşması və inkişafı – tarixi faktlar” kitabının nəşri barədə**

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 10.1-ci “Auditə dair kitabların, broşürlərin, metodiki vəsaitlərin və s. hazırlanması və nəşri” və Auditorlar Palatası Şurasının “Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planı barədə” 2024-cü il 29 dekabr tarixli 372/1 nömrəli qərarının 3-cü “Auditorlar Palatasının üzvlərinə tövsiyə edilsin ki, Palatanın dəstəyi ilə auditin aktual problemlərinə dair kitab, broşür, metodik təlimat və göstərişlər hazırlayıb nəşr etdirmək, həmçinin belə materialları təşviq etmək istədikləri təqdirdə iki ay müddətində öz müraciətlərini Auditorlar Palatasına ünvanlasınlar.” bəndlərinə uyğun olaraq Auditorlar Palatasının Şurası yanında Auditin hüquqi təminatı üzrə komitənin sədri, sərbəst auditor Ənvər Aslanov tərəfindən hazırlanmış “Maliyyə nəzarətinin (auditin) formalaşması və inkişafı – tarixi faktlar” kitabının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Maliyyə nəzarətinin (auditin) formalaşması və inkişafı – tarixi faktlar” kitabının layihəsi bəyənilsin (əlavə olunur) və nəşri məqsədəmüvafiq hesab edilsin.
2. Palatanın Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəis müavini A.Bayramovaya tapşırılsın ki, “Maliyyə nəzarətinin (auditin) formalaşması və inkişafı – tarixi faktlar” kitabının nəşrə hazırlanması üzrə zəruri işlərin görülməsini təmin etsin.
3. Palatanın Maliyyə və texniki təminat idarəsinə (B.Abbasov) tapşırılsın ki, üç həftə müddətində “Maliyyə nəzarətinin (auditin) formalaşması və inkişafı – tarixi faktlar” kitabının 300 (üç yüz) nüsxədə nəşr etdirilməsi təmin edilsin.
4. Palatanın İctimaiyyətlə əlaqə və informasiya şöbəsinə (M.Hüseynova) tapşırılsın ki, 300 (üç yüz) nüsxədə nəşr olunmuş “Maliyyə nəzarətinin (auditin) formalaşması və inkişafı – tarixi faktlar” kitabının aidiyyəti qurumlara və ali təhsil müəssisələrinə, Palatanın üzvlərinə, əməkdaşlarına, kitabxanasına və arxivinə müvafiq siyahı əsasında paylanılması təmin edilsin.
5. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**